*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 5 iyun tarixli 5/29 saylı Qərarı ilə təsdiq edilmiş və 2019-cu il 15 mart tarixli 1/3 saylı Qərarı ilə dəyişiklik edilmişdir.*

# Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin seçicilərə verilməsi qaydası haqqında

# T Ə L İ M A T

Seçkilərdə (referendumda) (bundan sonra – seçkilər) səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin (bundan sonra – səsvermə vəsiqəsi) seçicilərə verilməsi qaydasına dair tələblər Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 101-ci maddəsi ilə və bu Təlimatla tənzimlənir.

## 1. Ümumi müddəalar

1.1. Seçici səsvermə günü adının seçici siyahısında olduğu müvafiq seçki məntəqəsinin hüdudlarından kənarda olacağı və ya digər seçki (referendum) məntəqəsində (bundan sonra – seçki məntəqəsi) səs verəcəyi halda, müvafiq seçki (referendum) komissiyasından (bundan sonra – seçki komissiyası) səsvermə vəsiqəsi (Təlimata 1 saylı əlavə) ala bilər.

1.2. Səsvermə vəsiqəsi müvafiq seçki komissiyası tərəfindən seçicinin ərizəsi əsasında seçiciyə və ya notariat qaydasında təsdiq edilmiş vəkalətnamə əsasında onun nümayəndəsinə verilir. Ərizədə seçicinin səsvermə vəsiqəsini almaq üçün müraciət etməsinin səbəbləri göstərilməlidir (bu Təlimata 2, 2 ”a”, 2 ”b” və 2 ”c” saylı əlavələr). Bu ərizəyə əsasən seçiciyə səsvermə vəsiqəsi verilir.

1.3. Bir seçiciyə bir neçə səsvermə vəsiqəsinin verilməsi qadağandır.

## 2. Dairə seçki komissiyasında səsvermə vəsiqələrinin verilməsi

2.1. Dairə seçki komissiyası tərəfindən seçicilərə səsvermə vəsiqəsi səsvermə gününə 45–25 gün qalmış müddətdə verilir.

2.2. Dairə seçki komissiyası səsvermə vəsiqələrinin verilməsinin reyestrini tərtib edir. Reyestrdə seçicilərin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı göstərilməlidir (Təlimata 3 saylı əlavə). Səsvermə gününə 25 gün qalmış dairə seçki komissiyası seçici siyahıları ilə birlikdə həmin reyestrdən təsdiq edilmiş çıxarışları məntəqə seçki komissiyasına

göndərir. Hər bir məntəqə seçki komissiyası seçicilər siyahısında həmin çıxarışlara əsasən müvafiq qeydlər aparır.

2.3. Seçiciyə verilən səsvermə vəsiqəsi dairə seçki komissiyasının üzvü tərəfindən imzalanmalı və komissiyanın möhürü ilə təsdiqlənməlidir.

2.4. Dairə seçki komissiyası iki gündən bir məntəqə seçki komissiyasından aldığı məlumatları Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin İnformasiya Mərkəzinə təqdim edir.

2.5. Seçici və ya onun nümayəndəsi səsvermə vəsiqəsini dairə seçki komissiyasından aldıqda, reyestrdə öz şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsini göstərməklə imza atır. Bu zaman səsvermə vəsiqəsinin kəsilən küncü reyestrə əlavə edilir.

## 3. Məntəqə seçki komissiyasında səsvermə vəsiqələrinin verilməsi

3.1. Məntəqə seçki komissiyası ərizənin verildiyi gündən başlayaraq 2 gün müddətində dairə seçki komissiyasına müraciət edib, seçicinin əvvəl səsvermə vəsiqəsi alıb-almamasını müəyyən etməlidir.

3.2. Məntəqə seçki komissiyası tərəfindən seçicilərə səsvermə vəsiqəsi səsvermə gününə 24–3 gün qalmış müddətdə verilir.

3.3. Seçici və ya onun nümayəndəsi məntəqə seçki komissiyasından səsvermə vəsiqəsini aldıqda, seçicilər siyahısında öz şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsini göstərməklə imza atır. Bu halda vəsiqənin kəsilən hissəsi seçicilər siyahısına əlavə edilir.

3.4. Seçiciyə verilən səsvermə vəsiqəsi məntəqə seçki komissiyasında komissiya üzvü tərəfindən imzalanır və komissiyanın möhürü ilə təsdiq edilir.

3.5. Müvafiq məntəqə seçki komissiyası seçiciyə səsvermə vəsiqəsi verdikdən dərhal sonra bu haqda dairə seçki komissiyasına məlumat verir.

## 4. Yekun müddəalar

4.1. Bu Təlimat qüvvəyə mindiyi gündən Mərkəzi Seçki Komissiyasının 18 iyul 2008-ci il tarixli 7/27-6 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin seçicilərə verilməsi qaydası haqqında” Təlimat qüvvədən düşmüş hesab edilir.

Vəsiqə nömrəsi

kəsilmə xətti

*Təlimata 1 saylı əlavə*

**Qeydiyyatdan çıxma (səsvermə)**
**V Ə S İ Q Ə S İ**

___saylı_______________________________________________dairəsi
*(seçki (referendum) dairəsinin adı)*

______ saylı seçki (referendum) məntəqəsinin seçicilər siyahısında olan

_____________________________ qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin
*(seçicinin soyadı, adı, atasının adı)*

verilməsi barədə ____________________________________________________
*(dairə seçki (referendum) komissiyasının reyestrində və ya seçki (referendum) məntəqəsi üzrə seçicilər siyahısında)*

qeyd aparılmışdır.

**Dairə seçki (referendum)**
**komissiyasının üzvü** ___________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

və ya

**Məntəqə seçki (referendum)**
**komissiyasının üzvü** ___________ ____________________
*(imza)* *(inisialı və soyadı)*

M.Y.

“____”_____________ 20___ il
*(verilmə tarixi)*

Təyin edilmiş ____________________________________müddəti üçün verilir.
*(seçkinin (referendumun) adı)*

**Səs verərkən:**

___________________________________________ ____________
*(seçicinin ünvanı)* *(seçicinin imzası)*

**Qeyd:** 1. *Azərbaycan Respublikası Seçki Məcəlləsinin 101.8-ci maddəsinə əsasən səsvermə vəsiqəsi seçici tərəfindən seçki bülleteninin (referendum üzrə səsvermə bülleteninin) alınması üçün təqdim edildikdə, vəsiqə seçicilər siyahısına əlavə edilir.*
*2. Seçici seçkilər günü səsvermə bülletenini alarkən, səsvermə vəsiqəsində öz yaşayış yerinin ünvanını göstərməli və onu imzalamalıdır.*
*3. Səsvermə vəsiqəsi Azərbaycan Respublikasında keçirilən referendumda və prezident seçkilərində respublikanın bütün ərazisində, Milli Məclisə seçkilərdə müvafiq seçki dairəsinin ərazisində, bələdiyyə seçkilərində isə müvafiq bələdiyyənin ərazisində tətbiq edilir.*

*Təlimata 2 saylı əlavə*

___ saylı________________________________seçki
*(seçki (referendum) dairəsinin adı)*
dairəsi dairə seçki komissiyasının sədrinə
____________________________________ yaşayan,
*(seçicinin yaşayış yerinin ünvanı)*
_____________________________________________
*(doğum tarixi – 18 yaşa çatdıqda ay və gün göstərilməklə)*
_____________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin*
________________________________________malik
*seriyası, nömrəsi və verilmə tarixi)*
____________________________________ tərəfindən
*(soyadı, adı, atasının adı)*

**Ə R İ Z Ə**

"____"_____________ 20 ___ il tarixə təyin edilmiş ____________________
________________________________________ seçkilər(in)də (referendumda)
*(seçkinin (referendumun) adı)*
səsvermə günü _____________________________________________________
____________________________________________ görə, seçicilər siyahısına
*(iştirak edə bilməmənin səbəbi göstərilməklə)*
daxil edildiyim _____________seçki məntəqəsində səs verə bilməyəcəyimi
*(seçki məntəqəsinin sayı)*
nəzərə alaraq, olduğum ərazidəki seçki məntəqəsində səs vermək üçün mənə qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi vermənizi xahiş edirəm.

İmza: ___________ ___________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*
"_____" ___________20___ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 101.2-ci maddəsinə əsasən seçici səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsini dairə seçki komissiyasından səsvermə gününə 45-25 gün qalmış ala bilər.*
*2. Səsvermə vəsiqəsi Azərbaycan Respublikasında keçirilən referendumda və Prezident seçkilərində respublikanın bütün ərazisində, Milli Məclisə seçkilərdə müvafiq seçki dairəsinin ərazisində, bələdiyyə seçkilərində isə müvafiq bələdiyyənin ərazisində tətbiq edilir.*
*3. Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*Təlimata 2 ”a” saylı əlavə*

___saylı________________________seçki dairəsinin
*(seçki dairəsinin adı)*
_____ saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının sədrinə
___________________________________ yaşayan,
*(seçicinin yaşayış yerinin ünvanı)*
____________________________________________
*(doğum tarixi – 18 yaşa çatdıqda ay və gün göstərilməklə)*
____________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin*
_______________________________________malik
*seriyası, nömrəsi və verilmə tarixi)*
__________________________________ tərəfindən
*(soyadı, adı, atasının adı)*

**Ə R İ Z Ə**

“_____” ____________ 20 ___ ilə təyin edilmiş ______________________
_______________________________________________________________
*(seçkinin (referendumun) adı)*
seçkilər(in)də (referendumda) səsvermə günü ________________________
__________________________________ görə, seçicilər siyahısına daxil
*(iştirak edə bilməmənin səbəbi göstərilməklə)*
edildiyim___________________seçki məntəqəsində səs verə bilməyəcəyimi
*(seçki məntəqəsinin sayı)*
nəzərə alaraq, olduğum ərazidəki seçki məntəqəsində səs vermək üçün mənə qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi verməniz xahiş edirəm.

İmza: _________ _________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*
“_____” ___________20____ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 101.2-ci maddəsinə əsasən seçici səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsini məntəqə seçki komissiyasından səsvermə gününə 24-3 gün qalmış ala bilər.*
*2. Səsvermə vəsiqəsi Azərbaycan Respublikasında keçirilən referendumda və Prezident seçkilərində respublikanın bütün ərazisində, Milli Məclisə seçkilərdə müvafiq seçki dairəsinin ərazisində, bələdiyyə seçkilərində isə müvafiq bələdiyyənin ərazisində tətbiq edilir.*
3. *Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*Təlimata 2 "b" saylı əlavə*

____ saylı ______________________________ seçki
*(seçki dairəsinin adı)*
dairəsi dairə seçki komissiyasının sədrinə
_____________________________________ yaşayan,
*(seçicinin yaşayış yerinin ünvanı)*
_____________________________________________
*(doğum tarixi – 18 yaşa çatdıqda ay və gün göstərilməklə)*
_____________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin*
_________________________________________malik
*seriyası, nömrəsi və verilmə tarixi)*
_____________________________________________
*(seçicinin soyadı, adı, atasının adı)*
nümayəndəsi__________________________________
*(yaşadığı yerin ünvanı)*
yaşayan ______________________________________
*(vəkalətnamənin sıra sayı, verilmə tarixi,*
_____________________________________________
*onu verən notariat ofisi və ya digər səlahiyyətli orqan)*
vəkalətnamə əsasında fəaliyyət göstərən
____________________________________tərəfindən
*(nümayəndənin soyadı, adı, atasının adı)*

## Ə R İ Z Ə

"____"________ 20___ ilə təyin edilmiş __________________ seçkilər(in)də
*(seçkilərin (referendumun) adı)*
(referendumda) səsvermə günü _____________________________________
______________________________________________________________
*(seçicinin soyadı, adı, atasının adı)*
___________________________________________________________ görə,
*(seçici siyahısında olduğu məntəqədə səs verməməsinin səbəbi)*

seçicilər siyahısına daxil edildiyi ________________ seçki məntəqəsində səs
*(seçki məntəqəsinin sayı)*
verə bilməyəcəyini nəzərə alaraq, olduğu ərazidəki seçki məntəqəsində onun səs verməsi üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsini mənə verməniz xahiş edirəm.

İmza: ________ ________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*
"_____" ______________20___ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 101.2-ci maddəsinə əsasən seçicinin nümayəndəsi səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsini dairə seçki komissiyasından səsvermə gününə 45–25 gün qalmış ala bilər.*

*2. Səsvermə vəsiqəsi Azərbaycan Respublikasında keçirilən referendumda və Prezident seçkilərində respublikanın bütün ərazisində, Milli Məclisə seçkilərdə müvafiq seçki dairəsinin ərazisində, bələdiyyə seçkilərində isə müvafiq bələdiyyənin ərazisində tətbiq edilir.*

3. *Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*Təlimata 2 "c" saylı əlavə*

_____ saylı __________________________ seçki dairəsinin
*(seçki dairəsinin adı)*
______ saylı seçki məntəqəsi məntəqə seçki komissiyasının sədrinə ____________________________________ yaşayan,
*(seçicinin yaşayış yerinin ünvanı)*
___________________________________________________
*(doğum tarixi – 18 yaşa çatdıqda ay və gün göstərilməklə)*
___________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin*
______________________________________________malik
*seriyası, nömrəsi və verilmə tarixi)*
___________________________________________________
*(seçicinin soyadı, adı, atasının adı)*
nümayəndəsi________________________________________
*(yaşadığı yerin ünvanı,*
yaşayan ___________________________________________
*vəkalətnamənin sıra sayı, verilmə tarixi,*
___________________________________________________
*onu verən notariat ofisi və ya digər səlahiyyətli orqan)*
vəkalətnamə əsasında fəaliyyət göstərən
___________________________________________tərəfindən
*(nümayəndənin soyadı, adı, atasının adı)*

## Ə R İ Z Ə

"___" __________ 20___ ilə təyin edilmiş ___________________
*(seçkilərin (referendumun) adı)*
seçkilər(in)də (referendumda) səsvermə günü _________________________
*(seçicinin soyadı, adı, atasının adı,*
_____________________________________________________________ görə,
*seçici siyahısında olduğu məntəqədə səs verməməsinin səbəbi)*
seçicilər siyahısına daxil edildiyi ________________________________seçki
*(seçki məntəqəsinin sayı)*
məntəqəsində səs verə bilməyəcəyini nəzərə alaraq, seçki günü olacağı ərazidəki seçki məntəqəsində onun səs verməsi üçün mənə qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsi verməni̇zi xahiş edirəm.

İmza: _________ ___________________________________
*(ərizəçinin soyadı, adı, atasının adı)*
"_____" ___________20___ il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 101.2-ci maddəsinə əsasən seçicinin nümayəndəsi səsvermə üçün qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsini məntəqə seçki komissiyasından səsvermə gününə 24-3 gün qalmış ala bilər.*
*2. Səsvermə vəsiqəsi Azərbaycan Respublikasında keçirilən referendumda və*

*Prezident seçkilərində respublikanın bütün ərazisində, Milli Məclisə seçkilərdə müvafiq seçki dairəsinin ərazisində, bələdiyyə seçkilərində isə müvafiq bələdiyyənin ərazisində tətbiq edilir.*
3. *Referendum keçirilərkən bu sənəd nümunəsində seçki komissiyaları müvafiq olaraq referendum komissiyaları kimi göstərilməlidir.*

*Təlimata 3 saylı əlavə*

**_____________________________________ seçkilər(in)də (referendumda)**
*(seçkilərin və ya referendumun adı)*

**______ saylı _________________________________ seçki dairəsi üzrə**
*(seçki dairəsinin adı)*

**seçicilərə qeydiyyatdan çıxma (səsvermə) vəsiqəsinin verilməsi**

# R E Y E S T R İ

| Sıra sayı | Səsvermə vəsiqəsinin №-si | Səsvermə vəsiqəsi alan seçicinin soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Yaşayış yerinin ünvanı | Seçicinin qeydiyyatdan çıxdığı seçki məntəqəsinin sayı | Səsvermə vəsiqəsi alan seçicinin və ya onun nümayəndəsinin şəxsiyyət vəsiqəsinin, yaxud onu əvəz edən sənədin seriyası və nömrəsi | Səsvermə vəsiqəsinin verilmə tarixi və imza |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

**Dairə seçki komissiyasının sədri** ________________ ________________________
*(imza)* *(soyadı və inisialı)*

M.Y.